# KİTABXANALARIN MULTİKULTURAL FƏALİYYƏTİ

**UOT 008**
**KBT Ч734(2A)**

## Azərbaycanda mədəniyyət və incəsənət üzrə multikultural dəyərlərin tədrisi və təbliğinin kitabxana-informasiya təminatının bəzi məsələləri

**T.M.Əsgərova**
asgerova.70@mail.ru

**Xülasə:** *Məqalədə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin Azərbaycan mədəniyyəti və incəsənəti üzrə multukultural dəyərlərin tədrisi və təbliğinin kitabxana-biblioqrafiya və elmi informasiya təminatı üzrə fəaliyyəti, fondun informasiya resurslarının inkişafı problemləri öyrənilmişdir. Mərkəzin son illərdə bu istiqamətdə qazandığı nailiyyətlər göstərilmiş, mövcud nöqsanlar və onların həlli ilə bağlı gələcəkdə görülməsi vacib tədbirlər barədə təkliflər irəli sürülmüşdür.*
**Açar sözlər:** *milli-mənəvi dəyərlər, informasiya cəmiyyəti, ədəbiyyat sərgisi, komplektləşmə, intellektual səviyyə*
**Ключевые слова:** *национальные и моральные ценности, информационное общество, литература, выставка, приобретение, интеллектуальный уровень*
**Key words:** *national and moral values, information society, literature, exhibition, acquisition, intellectual level*

Müasir mərhələdə hüquqi dövlət quruculuğu şəraitində ölkəmizdə əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş, hazırda cənab prezident İlham Əliyevin layiqincə davam etdirdiyi multikulturalizm siyasəti və Azərbaycan xalqının əsrlər boyu qorunub saxlanmış multikultural dəyərləri respublikamızda sülhün, təhlükəsizliyin, dincliyin təmin edilməsi üçün çox mühüm vacib bir elementdir. Bu məqsədlə Azərbaycanda müasir informasiya cəmiyyəti şəraitində elmi-fəlsəfi, milli-mənəvi, bədii-estetik və mədəni-intellektual səviyyənin yük-

səlməsi və millətlərarası mədəni dialoqun inkişafı üçün dövlət tərəfindən lazımi münbit şərait yaradılmışdır. Belə ki, informasiya cəmiyyəti şəraitində əhalinin, əsasən də gənclərin elmi-fəlsəfi, milli-mənəvi, bədii-estetik zövqünün formalaşması, onların mədəni-intellektual səviyyənin yüksəlməsi və xalqımızın multikultural dəyərlərinin öyrənilməsi və təbliğ edilməsinə xüsusi diqqət göstərilir.

Azərbaycan Avropa ilə Asiyanın qovuşuğunda yerləşən ölkədir. Bizim sivilizasiyamız əsasən iki güclü qüvvənin təsiri altında formalaşmışdır: Şərq təməli və Qərb təsiri. Məlumdur ki, xalqın ictimai-tarixi inkişafının başlıca istiqamətlərini, onun xarakterini, dünya siyasi meydanında davranışını ən çox coğrafi determinizm amili müəyyən edir. Mütəfəkkirlərin bir çoxu coğrafi mühiti siyasi həyat, dövlət quruluşu formalarının və milli varlığın digər formalarının determinantı kimi qiymətləndirir.

Multikulturalizm ənənələri kitabxana işinin bütün sahələri ilə üst-üstə düşür. Azərbaycanda və başqa ölkələrdə etnik müxtəlifliyin artması, xalqlar arasında müxtəlif ölkələri və xalqları təmsil edən əlaqələrin artması və kolleksiyaların zənginliyi, kitabxana-biblioqrafiya xidməti, kitabxana təhsili, kitabxana proqramlarının inkişafı, peşəkar kitabxana personalı problemi və kitabxana mühitinin başqa məsələlərinə, əsasən də Azərbaycan mədəniyyəti və incəsənəti üzrə multikultural dəyərlərin tədrisi və təbliğinə toxunmağı tələb edir.

Azərbaycanda azsaylı xalqların adət-ənənələrinin, mədəniyyətinin və incəsənətinin qorunub saxlanılmasında, öyrənilməsində və təbliğində ümumilikdə bütün kitabxana-informasiya orqanlarının rolu əvəzsizdir.

Təqdim olunan bu araşdırmanın əsas tədqiqat obyektini multikulturalizm sahəsində kitabxana fəaliyyətinin bir istiqaməti olan – *"Azərbaycanda mədəniyyət və incəsənət üzrə multikultural dəyərlərin tədrisi və təbliğinin kitabxana-informasiya təminatı"*nın müxtəlif məsələləri təşkil edir. Burada Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) Kitabxana-İnformasiya Mərkəzinin (KİM) bu sahədə iş təcrübəsi əsasında Azərbaycanda mədəniyyət və incəsənət üzrə multikultural dəyərlərin tədrisi və təbliğinin kitabxana-informasiya təminatının müxtəlif aspektləri təhlil edilmişdir. Mərkəzin son illərdə bu istiqamətdə qazandığı nailiyyətlər göstərilmiş, mövcud nöqsanlar və onların həlli ilə bağlı gələcəkdə görülməsi vacib tədbirlər barədə təkliflər irəli sürülmüşdür.

Sevindirici haldır ki, müasir mərhələdə ADMİU ölkəmizdə mədəniyyət və incəsənət üzrə multikultural dəyərlərin tədrisi və təbliğinə böyük önəm verir və təhsil prosesinin təşkilində, eləcə də universitetin ictimai həyatında milli-mənəvi dəyərlərimizin və respublikamızın multikulturalizm mühitinin öyrənilməsi və tanıdılması problemini öz fəaliyyətinin əsas sahələrindən birinə çevirə bilmişdir. Belə ki, ali təhsil ocağında kulturologiya, sənətşünaslıq və multikulturalizm üzrə təhsil prosesinin iştirakçısı olan müəllim-tələbə heyətinin, o cüm-

lədən elmi araşdırmalar aparan alim və mütəxəssislərin informasiya təminatının optimallaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, onların dünya informasiya məkanına inteqrasiyası üçün lazımi şərait yaradılır.

Universitetdə professor-müəllim heyətinin və tələbələrin elmi mütaliə prosesini və təhsilin keyfiyyətini təşkil etmək məqsədilə fəaliyyət göstərən Kitabxana-İnformasiya Mərkəzi ali məktəbin aparıcı struktur bölmələrindən biri olub, təlim-tərbiyə və elmi tədqiqat prosesini tədris, elmi, metodiki ədəbiyyatla, digər ənənəvi və elektron informasiya materialları ilə təmin edən və bilikləri təbliğ edən, milli-mənəvi və intellektual əlaqələrin yayılması məkanıdır.

Mərkəz ölkəmizdə mədəniyyət və incəsənətin müxtəlif sahələri üzrə ən iri, eləcə də sosial, ictimai və humanitar elmlər sahəsində aparıcı ali təhsil müəssisəsi kitabxanalarından biridir və hazırda dünya xalqlarının bir çox dillərində (ingilis, alman, fransız, italiyan, polyak, rus, türk, fars, ərəb və s.) zəngin sənəd-informasiya resursları fonduna malikdir. Bu zəngin xəzinəyə Azərbaycan, rus və digər xarici xalqların dillərində nəşr edilmiş elmi monoqrafiyalar, dissertasiyalar, dövri nəşrlər, məlumat nəşrləri, təsviri sənət materialları, elektron nəşrlər daxildir və həmin sənəd kütləsi Azərbaycan mədəniyyəti və incəsənəti üzrə multikultural dəyərlərin tədrisi və təbliğində çox mühüm mənbə rolunu oynayır.

Nəzəri və təcrübi baxımdan bu bir faktdır ki, Azərbaycan mədəniyyəti və incəsənəti üzrə multikultural dəyərlərin tədrisi və təbliğinin kitabxana-biblioqrafiya və elmi informasiya təminatı sahəsində fəaliyyətin uğurla həyata keçirilməsi üçün sahə üzrə ilkin sənədlərlə və həmin sənədləri özündə əks etdirən biblioqrafik informasiya ilə təmin edilməsi zəruridir. Ümumiyyətlə, multikultural dəyərlərin kitabxana-informasiya təminatı istiqamətində fəaliyyət, bu sahədə mövcud sənədlər və informasiya tələbatçıları arasında uyğunluq yaratmaq, müvafiq sənəd kommunikasiyası sistemində informasiya maneələrinin aradan qaldırılmasında səmərəli vasitə olmaqla informasiya təlabatının təminatına xidmət edir. Təkcə belə bir faktı qeyd etmək lazımdır ki, son illərdə multikulturalizm üzrə ölkəmizdə 500-ə yaxın sənədli informasiya nəşr olunmuşdur ki, onların da 15-i kitab formalı nəşrlərdir. Bunlara misal olaraq aşağıdakıları xüsusilə qeyd etmək lazımdır:

1. Heydər Əliyev siyasəti: Tolerantlıq: çıxışlar, nitqlər, görüşlər, təbriklər.
2. Azərbaycan multikulturalizminin elmi-fəlsəfi və publisistik qaynaqları.
3. Azərbaycan multukulturalizminin siyasi və hüquqi qaynaqları.
4. Azərbaycanda birgə yaşayış və multikulturalizm.
5. Multikulturalizm siyasəti şərq-qərb müxtəlifliyi.
6. Multikulturalizm siyasəti.
7. Multikultural təhlükəsizlik.
8. Müasir dünyada mədəniyyətlər arası münasibətlər.
9. Azərbaycan mutikulturalizminin ədəbi-bədii qaynaqları və s.

Qeyd olunan kitablardan 5-i hazırda KİM-in ədəbiyyat fondunda öz əksini tapmışdır. Digər nəşrlərin də mərkəzin fonduna daxil edilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirilir və fondun komplektləşdirilməsində bu sənədlərin əldə edilməsinə xüsusi diqqət yetirilir.

Kitabxana-İnformasiya Mərkəzinin fondunun komplektləşdirilməsində, xüsusilə də multikulturalizm üzrə ədəbiyyatla zənginləşməsində ADMİU-da çap olunan "Mədəniyyət dünyası" və "Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Əsərləri" adlı elmi-nəzəri məcmuələrin mühüm əhəmiyyəti vardır ki, bu məcmuələrdə sənətşünaslıq, kulturologiya, muzeyşünaslıq, fəlsəfə və onların tədrisi metodikası ilə bağlı elmi əsərlər çap olunur və bu əsərlərdə Azərbaycan mədəniyyəti və incəsənəti üzrə multikultural dəyərlərin müxtəlif problemlərinin elmi və praktiki təhlili verilir.

Mərkəzin ədəbiyyat fondunun tərkibi, onun zənginliyi və burada kitabxana-informasiya fəaliyyətinin dövrün tələbləri səviyyəsində təşkili deməyə əsas verir ki, o, universitetdə Azərbaycan mədəniyyəti və incəsənəti üzrə multikultural dəyərlərin tədrisi və təbliğinin kitabxana-biblioqrafiya və elmi informasiya təminatını optimal həyata keçirmək imkanına malikdir. Belə ki, KİM-də formalaşmış informasiya sərvətləri Azərbaycan elminin müvafiq sahələri üzrə intellektual potensialı, onun qüvvəsi və qüdrətinin, eləcə də milli-mənəvi dəyərlərin və multikulturalizmin tədrisi və təbliğində mühüm qaynaqdır.

Kitablar, dövri və ardı davam edən nəşrlər, dissertasiyalar və avtoreferatlardan ibarət çap və elektron sənəd-informasiya resursları fondunu zənginləşdirmək, mühafizə etmək, onlardan istifadəni təmin etmək və bu fondu özündə əks etdirən mükəmməl informasiya axtarış sistemi (ənənəvi və elektron kataloq), elektron kitabxana və biblioqrafik vəsaitlər sistemini tətbiq etməklə təlabatçıların hərtərəfli istifadəsinə vermək KİM-in multikultural dəyərlərin tədrisi və təbliğinin kitabxana-biblioqrafiya və elmi informasiya təminatı sahəsində əsas fəaliyyət istiqamətini təşkil edir.

Azsaylı xalqların milli-mənəvi, mədəni-dini irsinin mühafizəsi, öyrənilməsi, tədrisi və təbliği üzrə fəaliyyətin, həm də onun kitabxana-informasiya tələbatının, sənəd axını və kütləsinin ətraflı öyrənilməsindən, elmi təhlilindən, mövcud vəziyyətin qiymətləndirilməsi və bu sahə üzrə proqnozların verilməsi isə KİM-in Azərbaycan mədəniyyəti və incəsənəti üzrə multukultural dəyərlərin tədrisi və təbliğinin kitabxana-biblioqrafiya və elmi informasiya təminatı üzrə fəaliyyətinin əsas vəzifəsidir. Bu vəzifənin uğurla yerinə yetirilməsi məqsədilə, KİM müstəqil dövlət quruculuğu şəraitində dövlətçiliyin, azərbaycançılığın mühüm, aparıcı ideya olduğunu diqqət mərkəzində saxlamaqla multikulturalizm üzrə biblioqrafik resursun yaradılmasına, ondan səmərəli istifadənin təşkilinə xüsusi diqqət yetirir. Belə ki, Mərkəzdə ənənəvi "Multikulturalizm ili" adlı kartoteka yaradılmış, kitabxananın fondunda olan multikulturalizmə və

tolerantlığa dair çap məhsullarının, fonda daxil olan dövri nəşrlərdəki ən əhəmiyyətli məqalələrin biblioqrafik təsvirləri elektron kataloqun tərkibinə daxil edilir. Müasir informasiya texnologiyalarının tətbiqi ilə "ИРБИС-64" avtomatlaşdırılmış kitabxana-informasiya sistemi (AKİS) vasitəsilə elektron kataloq yaradılır, kitablar, avtoreferatlar, dissertasiyalar, jurnal və dövri mətbuat materialları ayrı-ayrı bazalarda yığılır ki, bu da Azərbaycan mədəniyyəti və incəsənəti üzrə multikultural dəyərlərin tədrisi və təbliği prosesinə innovativ yanaşma kimi dəyərləndirilə bilər.

Kitabxana-İnformasiya Mərkəzinin Azərbaycan mədəniyyəti və incəsənəti üzrə multikultural dəyərlərin tədrisi prosesinin kitabxana-biblioqrafiya və elmi informasiya təminatı sahəsində əsas fəaliyyət istiqamətlərinin öyrənilməsi deməyə əsas verir ki, mərkəz:

- sahə üzrə kitablar, dövri və ardı davam edən nəşrlər, dissertasiyalar və avtoreferatlardan ibarət sənəd-informasiya resursları fondunu zənginləşdirir, onların düzgün mühafizəsini təşkil edir və həmin sənədlərin istifadəni təmin edir;
- multikulturalizm üzrə kitabxananın sənəd-informasiya resurslarını mükəmməl informasiya axtarış sistemi (ənənəvi və elektron kataloq), elektron kitabxana və biblioqrafik vəsaitlər sistemini tətbiq etməklə oxucuların hərtərəfli istifadəsinə verir;
- mövzu ilə bağlı ənənəvi və virtual ədəbiyyat sərgiləri təşkil etməklə fondun təbliğini təşkil edir.

Nəticə olaraq qeyd etməliyik ki, hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin Azərbaycan mədəniyyəti və incəsənəti üzrə multikultural dəyərlərin tədrisi və təbliğinin kitabxana-biblioqrafiya və elmi informasiya təminatı üzrə fəaliyyəti, fondunun, onun informasiya resurslarının inkişafı mövcud problemlərə baxmayaraq prinsip etibarilə sistemli xarakter daşıyır. Mərkəz Azərbaycan mədəniyyəti və incəsənəti üzrə multikultural dəyərlərin tədrisi və təbliğinin kitabxana-biblioqrafiya və elmi informasiya təminatı istiqamətində ənənəvi və elektron kitabxana vasitəsi ilə multikulturalizm üzrə oxucuların informasiya tələbatını operativ ödəyir və onlara dolğun informasiya xidmət göstərməklə bu sahədə öz fəaliyyətini müasir tələblər səviyyəsində qura bilmişdir.

Son olaraq, Multikulturalizm İli çərçivəsində ADMİU-nun Kitabxana-İnformasiya Mərkəzində və ümumilikdə digər sosial institutlarda bu sahədə fəaliyyətin səmərəliliyinin artırılmasına yönələn bir sıra təklifləri qeyd etmək istərdik:

- Təhsil müəssisələri daxilində ictimai fəaliyyət olaraq "Multikultural Dəyərlərin Təbliği Cəmiyyəti"nin və onun elektron informasiya bazasının yaradılması;
- Mütəmadi olaraq ölkənin mədəni həyatı ilə bağlı olan multikultural

dəyərlərin təqdimatı və təbliği ilə bağlı sənəd-informasiya resurslarının toplanması və ictimai istifadəsinin təşkili;

- İnsanların mədəni həyatı ilə əlaqədar olan multikultural dəyərlər barəsində yer almış informasiyaların çeviklik nümayiş etdirmək;

- Mədəniyyət və incəsənətin müxtəlif sahələrində multikultural dəyərlərin təbliği ilə bağlı tədbirlər hazırlamaq, bu yöndə təkliflər vermək.

**Ədəbiyyat**

1. bakuforum.az
2. Kitabxana-informasiya elmi: tədris və təcrübədə yeni çağırışlar. Beynəlxalq elmi konfransın materiallar. Bakı, 05 may, 2016, 308s.
3. Mədəni müxtəliflik: Dünya və Azərbaycan modeli. Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 29 aprel, 2016, 367s.
4. Multikulturalizm Azərbaycanın həyat tərzidir: metodik tövsiyələr / tərt. ed.: M.Hacıyeva, N.Alışova; red. və burax. məsul K.Tahirov; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. Bakı, 2016, 59s.

## Библиотечно-информационного обеспечения образование и продвижение национальных ценностей о культуре и искусстве Азербайджана

Т.М.Аскерова

**РЕЗЮМЕ**

*В статьи были изучены обучение и продвижение ценностей культуры и искусства библиотечной науки и научно-информационной поддержки деятельности Фонда, ее развитие информационных ресурсов Библиотека и информационный центр Азербайджанский Государственный Университет Культуры и Искусства. Достижения Центра в последние годы, эта область имеет существующие недостатки и принять необходимые меры для их решения, предложения были выдвинуты в будущем.*